Azad Azərbaycan.-13 iyul.-2023.-S.4

*(Əvvəli ötən sayımızda)*

# Qələminə arxalanan xanım

## *Yazıçı Eluca Atalının romanları haqqında bəzi fikirlər və mülahizələrim*

**Müəllif bu priyomdan məharətlə istifadə edərək, təkcə Fatmanın yox, Fatma kimilərin İranda buxovlanması, alçalması, təhqir olması, ağır işkəncələrə məruz qalmasını göstərmək istəyir.**

İmam Xomeyninin yaşı çox olsa da, çox hiyləgərdir və bic siyasət yürüdür. Hakimiyyətə gəlmək üçün hələ Parisdə olarkən demişdir: "Məhəmmədrza Pəhləvinin düşməni bizim dostlarımız olmalıdır. Kommunistlərlə bir olmalıyıq". Lakin hakimiyyətə gələn kimi sözündən dönür, bir neçə xarici səfirliyi bağlayır və onların İranı tərk etməsini tələb edir. Məsələ aydındır, siyasətin öz qanunları var. O, hər gün dəyişə bilər. Bunu Xomeyninin İrana gəlişindən sonra aydın gördük və o ətrafına mollaları topladı, onlara səlahiyyətlər verdi, rejimə qarşı çıxanlara qarşı amansız divan tutdu.

Eluca xanım bütün bunları çox gözəl və dəqiqliyi ilə qələmə alıb.

Onu da deyək ki, iri dövlətlər hər hansı bir ölkədə çevriliş etmək istəyəndə, bir nəfərin üzərində yox, alternativ kadrları da ehtiyatda saxlayırlar. Bu da Musəvi kartı idi. Xomeyni onun hakimiyyətə gətirilməsində türklərin əli olduğunu bilir və onun əleyhinə kompaniya apardı, nəticədə Ağ evi inandıra bilir.

Ağ evin niyə Musəvidən imtina etməsi kitabda tam açılmır. Burada türk faktoru vardırmı, yoxsa İranda demokratik dövlət yaratmaqla, kommunistlərlə bir olacaqdır? Bu, oxucuya məlum olmur. Hər halda Xomeyni istəyinə nail olur və Ağ evin dəstəyi ilə İrana hakimiyyətə gəlir.

Xalq sanki müəmma içindədir. Onları qarşıda nə gözləyir? Dəqiq heç kim bilmir. Azərbaycanlı soydaşlarımız "azadlıq" buxovundan azad olub, öz ana dilində danışacaqlarına, azəri dilində məktəblərin açılmasına, mətbu orqanların çapına böyük inamları vardır. Lakin bu inam elə ana bətnindəcə boğuldu. Xomeyninin yaratdığı və böyük səlahiyyətlər verdiyi Hizbullah qanlı orqanı qılınclarını daha da itilədib, yerli hökumətə qarşı söz deyəni dama basıb ağır işkəncələr verməyə başladılar.

Eluca Xanım bu dözülməz və ağlagəlməz işkəncələr haqqında çox mükəmməl, ürək ağrısı ilə, inandırıcı şəkildə qələmə alıb, bu onun uğurudur. Bu işkəncələr haqqında aşağıda danışacağıq.

Əsərin ən qızğın və maraqlı yerində bir səhifəlik "Ritual" fəsli gəlir. Onun hansı məqsəd daşıdığı oxucuya məlim olmur və mənə elə gəlir ki, bu fəsil artıqdandır. Ola bilsin müəllif mənimlə razılaşmasın. Bir məsələyə də toxunmaq istəyirəm. İran. Yeni rejim. Xizbullah. İşkəncələr. Hadisələrin gərginliyi və oxucuları həyəcanda saxladığı bir anda kitabda Napaleonla Böyük Pyotr haqqında geniş yer ayrılır. Bunun İran həyatına, Xomeyni rejiminə, zindanda boğulanlara nə dəxli?

**Əgər müəllifin həmin tarixi şəxslərlə Xomeyni rejimini analogiya kimi qələmə vermək istəyibsə, məqsədi nədən ibarət olduğunu tam açmalı idi. Bir oxucu kimi, həmin hissə romana sanki artıqlıq, bir lazımsız yük gətirir. Bunu da tam başa düşmədim. Mənə elə gəlir ki, bu "Üç vəd, üç tələb" romanında artıqdandır. Çünki əsərin axarını, ardıcıllığını, ən əsas isə rabitəni pozur.**

İndi "Qanlı orkestr" romanı ilə bağlı fikirlərimi müəlliflə bölüşmək istərdim. Əsər ürəkağrısı ilə, içini göynədə-göynədə, ola bilsin, yuxusuz gecələr keçirib Eluca xanım, bəlkə də əlindəki qələm bir neçə dəfə donub qalıb, o sətirləri yazarkən, hər sətirdə, cümlədə bir qan izini görüb. Əsəri oxuyan adam bunu hiss etməlidir. Eluca xanım yaşayıb o həyatla, görüb o qanlı həyatı. Buna şək-şübhə ola bilməz. Bu Eluca xanımın dəmir iradəsindən, ləyaqətindən, millətinə olan məhəbbətindən, o taylı, bu taylı azərilərin həyatına biganə qalmamasını sübut edir.

Arazın o tayında yaşayan soydaşlarımızın, ələlxus gəlin-qızlarımızın başına gətirilən ağır və dözülməz müsibətlər Hizbullahın qanlı bir orqan kimi törətdikləri vəhşilikləri və insan ağlına gəlməyən işkəncələrini Eluca Atalı dəqiqliklə qələmə almışdır. O, həmin zindanda yatan və təsadüf nəticəsində azadlığa çıxıb, İranı tərk edən qadınlarla görüşmüş, onların ağır, məşəqqətli həyatlarını dinləmiş və qələmə almışdır. Kitabı oxuduqca mənə elə gəlirdi ki, Hizbullah zindanında yatanların arasında Eluca Atalı da vardır. Niyə belə qənaətə gəlirəm? Müəllif zindanda olan qayda-qanunların insan dərrakəsinə sığmayan dözülməz şəraitin və inanılmaz işkəncələrin sanki şahidi olmuşdur.



Bir neçə misal çəkməklə bunun şahidi olmaq olar. 12-13 yaşında olan qızları zindandan çıxarıb, onları yaşlı mollalara siğə elətdirib, bakirəliyini əlindən alıb, sonra dar ağacından asmaq insan mənəviyyatına, ləyaqətinə nə qədər uyğundur?

İran rejimi bunu onunla izah edir ki, həmin gənc qızlar cənnətə düşəcəklər. Və yaxud gənc qızları mərkəzi küçələrin birində şallaqlayır, sonra edam edirlər. Qadınları lüt şəkildə torbaya salır, üstlərindən kişiləri atır, ağızlarına kəndir vurub dərənin dibinə atırlar, sanki bu insanlar cəhənnəmlikdir. Bütün bunlar kütlə arasında, qızların valideynləri qarşısında baş verir.

Burada bir fikrimi bildirmək istərdim. Nə qədər ağır olsa da, nə qədər məşəqqətli işkəncələr verilsə də, kütlə arasından kimsə üsyan qaldırmalı idi. Atananın gözü qarşısında doğma qızlarını şallaqlayıb, sonra edam ağacından asırlarsa, valideyn ürəyi bu faciəyə necə dözə bilər? Nədir, onların da beyinləri yuyulub, müti "zombi"olublar? Ölümə gedəcəyini bilsələr belə, valideynlər öz üsyankar səslərini qaldırmalı idilər, yoxsa belə nəticəyə gəlmək olar ki, onlar öz balalarına qarşı laqeyd və öqeydirlər. Bu haqda düşünməyə dəyər.

**Zindanda olanlar Allaha dua edirlər ki, onları azadlığa buraxsınlar. Nargiləni misal çəkmək olar. Allaha inanır və ona dua edir ki, onu azad etsinlər. Lakin duası qəbul olunmur və ertəsi gün onu güllələyirlər.**

Zindanın divarında belə bir söz yazılıb: "Allahı çağırmayın, o, burada yoxdur". Buna inanmasalar da, Allaha sığınıb, ümidlə yaşayan qadınları səhəri güllə qarşısına gətirilir, öldürülür və yaxud ölümünə fərman verilən qadınları və qızları qəbirlərini özlərinə qazdırır və diri-diri basdırırlar. Türk soydaşlarımızın başına bax belə, faciəli oyunlar açırlar. Çünki bu, Xomeyni rejiminin insan mənəviyyatını alçaldan iyrənc siyasətidir.

Nigarın da başına dəhşətli işkəncələr açılır. Onu qurşağa qədər etdikləri zülm dilə gəlməz, Eluca xanım həmin səhnəni həm özünün, həm də oxucuların qəlblərini sarsıtsa da, yaxşı işıqlandırıb

Yüzlərlə, minlərlə günahsız adamlara dözülməz işkəncələr verən, cavan qızlara qarşı zorakılıq edən, Xomeyni siyasətinin qurbanlarına çevrilən həmin insanlar əllərini göyə qaldırıb, Allaha dua edirlər ki, bizə verilən cəza məqbuldursa, bəs bu ölüm fərmanına imza atan Xomeyni niyə cəzasız qalmalıdır? Sual cavabsız qalır, nifrət isə çoxalır. Nifrətin içi isə qanla doludur. Lakin kimdir həmin nifrətin qarşısında vicdan əzabı çəkən? Əksinə, günahsız qızları dinləyən, onlara rəhmi gələn varmı? Yox! Nəticədə nifrət qan canağı ilə dolur. Hizbullahçıların qanlı əlləri ilə.

Mənə elə gəlir ki, Eluca xanım bütün ağrıları ürəyində çəkib və gördüklərini, eşitdiklərini bir azərbaycanın vətənpərvər qızı kimi özünə borc bilib, hər bir detalı təfərrüatı ilə qələmə alıb. Əsərdə İran rejiminin apardığı siyasət insan psixologiyasına, mövcud siyasətə boyun əyməyənlərə dözülməz işkəncələrin verilməsi nəticəsində stressə düşmələri, çox vaxt havalanıb dəlixanada yatmaları, bununla da ömürlərinə sanki bir möhür vururlar.

Yuxarıda qeyd etdim, Fatmanın atası ilə apardığı dialoq maraqlıdır, oxunaqlıdır. Orada çox mətləblərə toxunulur və ordan oxucu özü üçün çox şeylər əxz edə bilər. Ən başlıcası isə Fatmanın gündəliyidir. Bu həyat gündəliyi deyil. Bu, mənim fikrimcə cəhənnəmə atılmış və cəhənnəmdə günahsız yatan insanların həyat taleyi, haqsızlığa, ədalətsizliyə qarşı fəryadıdır. Zindanda olan qəddarlıq, dəhşət, namusun əldən alınması, zorakılıq, ölüm kabusu, gerçəklənməyən arzular - bütün bunlar Hizbullahın Xomeyni siyasətinin qanlı ləpirləridir.

**Hizbullçıların qanli dəstələri insan cildindən çıxıb, İranda yaşayıb, onun siyasətinin əleyhinə gedənlərə (çox vaxt hər hansı bir valideyn rejimə nifrət edirsə, deməli, bütün ailələri həbs olunub zindana salınır) məşəqqətli içkəncə verəndə görəsən ana-bacıları gözləri qarşısında durrumu və yaxud damarlarında axan qan donmurmu? Mənə elə gəlir ki, Hizbullahda olan o cəlladların hamısının beyinlərini yuyub, "sombi"ləşdiriblər. Onların vəzifəsi işkəncə və zorakılıqdır. Bunu özlərinin bir nöm rəli vəzifəsi bilirlər.**

Əsərdə təkcə Hizbullahçıların dəhşətli hərəkətlərindən danışmaqla yanaşı, paralel olaraq onların başında duran hakimiyyət orqanlarının ölkədə, təkcə soydaşlarımıza qarşı deyil, demolratik fikirli insanlara qarşı apardıqları siyasətə, təbliğata da rast gəlsəydik, pis olmazdı. Həmçinin Xomeyni hakimiyyətinin hansı ölkələrlə münasibətlərin dinc, sülh şəraitində qurulması və bundan fayda götürməsi, eyni zamanda hansı dövlətlərə qarşı isə loyal mövqe tutaraq dilində, çıxışlarında "qardaş, qardaş" deyib, qardaşın düşmənlərini dəstəkləməkdə, onlara maddi, hərbi və mənəvi yardım etmələri kitabda açılsaydı, daha yaxşı olardı. Düzdür, bu haqda kütləvi informasiya vasitələrində geniş yazılıb. Bununla belə, Eluca Atalı bu mövzuya toxunsaydı, daha yaxşı olardı və yaxud özünün beşinci romanını yazmış olardı.

Bütün romanlarda Hizbullahın verdiyi işkəncələr ətralı təsvir olunur. Kişilərə qarşı münasibətin əsərdə şahidi olmuruq. Ola bilsin, Eluca Atalı özü qadın olduğundan İranda təqiblərə və işkəncələrə məruz qalan qadınlardan bəhs etməyi qarşısına məqsəd qoyub? Burada ağlıma belə bir fikir gəldi ki, İranda soydaşlarımızın artdığı bir zamanda, onların sayını azaltmaq üçün onlarla, yüzlərlə, bəlkə də minlərlə azəri qızlarını işkəncələr verməklə məhv edib, gələcəkdə ana olmaq hüququnu əllərindən alırlar. Ola bilsin, düşüncələrim düz olmasın və kitabın müəllifi mənimlə razılaşmasın. Bu, onun bir müəllif kimi hüququdur.

Müəllifə bildirmək istəyirəm ki, bu, nə tənqiddir, nə iraddır, bu, kitabda görünməyən tərəflər olduğundan bir qələm sahibinin, digər qələm sahibinə məsləhətidir.

Eluca Atalının "İran Hizbullah Zindanında" əsəri bu gün çox aktualdır. Onun geniş yayılması və çoxlu oxucu tərəfindən oxunulması məsləhətdir. Romanı oxuyub qurtarandan sonra belə qənaətə gəldim ki, Fatmanın gündəliyini elə Eluca Atalının özü yazıb. Nə qədər izdirablar, dəhşətli səhnələr, qəddarlıq, sarsıntılar, sui-qəsdlər, işkəncələr hansı sivil dövlətin nüfuzundan danışa bilər? Eluca xanım qələmini əlinə alaraq illərlə araşdırma aparmış, çoxlarında olmayan, lakin özündə cəsarət tapıb, İran molla rejiminə qarşı belə cəsarətli və samballı bir əsər yaratmışdır.

**Bu yolda uzaq İsveçdə yaşayan Türk qızına uğurlar diləyirəm.**



**Eyruz MƏMMƏDOV,**
**Əməkdar jurnalist,**
**yazıçı, publisist**